**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1996-cı il 3 aprel tarixli, 44 nömrəli qərarının qüvvədən düşmüş hesab edilməsi və bəzi qərarlarına dəyişikliklər edilməsi haqqında**

**AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI**

"Azərbaycan Respublikasının Dövlət Əmlakı Nazirliyinin yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 24 dekabr tarixli, 229 nömrəli Fərmanının icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti qərara alır:

1. "Azərbaycan Respublikası Dövlət Əmlak Komitəsinin bəzi məsələləri haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1996-cı il 3 aprel tarixli, 44 nömrəli qərarı qüvvədən düşmüş hesab edilsin.

2. "Azərbaycan Respublikasında dövlət özəlləşdirmə paylarının (çeklərinin) verilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1996-cı il 12 dekabr tarixli, 174 nömrəli qərarında, "Dövlət özəlləşdirmə payları (çekləri) ilə bağlı bəzi normativ sənədlərinin təsdiqi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1997-ci il 1 fevral tarixli, 11 nömrəli qərarında, "Səhmdar cəmiyyətin səhmlərin bir hissəsi dövlətdə qaldıqda cəmiyyətin ümumi yığıncağında iştirak etmək məqsədi ilə dövlət mülkiyyətində qalan səhmlərin sayına uyğun olaraq dövlət orqanlarının nümayəndələrinin təyin edilməsi qaydasının təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1997-ci il 2 may tarixli, 37 nömrəli qərarında, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1997-ci il 9 iyun tarixli, 59 nömrəli qərarında, "Təsərrüfatdaxili subartezian quyularının və nasos stansiyalarının su istifadəçilərinə verilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1997-ci il 3 sentyabr tarixli, 103 nömrəli qərarında, "Azərbaycan Respublikası Dövlət Əmlak Komitəsinin kollegiya üzvlərinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1997-ci il 2 oktyabr tarixli, 117 nömrəli qərarında, "Dövlət mülkiyyətinin özəlləşdirilməsi nəticəsində yaradılmış səhmdar cəmiyyətlərinin və müəssisələrin dövlətə və dövlət müəssisələrinə vaxtında ödənilməmiş borclarının ödənilməsi şərtləri haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1998-ci il 23 mart tarixli, 62 nömrəli qərarında, "Özəlləşdirilən dövlət müəssisə və obyektlərin yerləşdiyi torpaq sahələrinin normativ qiyməti haqqında Əsasnamənin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1998-ci il 27 aprel tarixli, 93 nömrəli qərarında, "Özəlləşdirilən müəssisə və obyektlərin qiymətləndirilməsinin təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1999-cu il 27 avqust tarixli, 140 nömrəli qərarında "Dövlət Əmlak Komitəsi" sözləri ismin müvafiq hallarında "Dövlət Əmlakı Nazirliyi" sözləri ilə və "DƏK" sözləri ismin müvafiq hallarında "DƏN" sözləri ilə əvəz edilsin.

3. Bu qərar imzalandığı gündən qüvvəyə minir.

**Azərbaycan Respublikasının Baş naziri A. RASİZADƏ**

**Bakı şəhəri, 7 iyul 2000-ci il**

**№ 113**

**Azərbaycan Respublikasının Qanunvericilik toplusu.- 2000.- 31 iyul, № 7.- S. 2996-2997.**